«Dövlət qeydiyyatına alınmışdır»
Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində
Qeydiyyat № 1117-Q60-3514
«27» iyul 2017-ci il
Qeydiyyat və notariat baş idarəsinin
rəisi İlqar Məmmədov ________

«Təsdiq edilmişdir»
Azərbaycan Dövlət İqtisad
Universitetinin (UNEC)
Elmi Şurasının
«30» iyun 2017-ci il tarixli
EŞ-153 №-li Qərarı ilə
rektor, prof. Ədalət Muradov ________

# «UNEC Tədqiqat» Fondunun

# NİZAMNAMƏSİ

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. **UNEC Tədqiqat Fondu** (bundan sonra - Fond) Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa, qüvvədə olan digər qanunvericilik aktlarına uyğun olaraq daimi əsaslarla yaradılan qeyri-hökumət təşkilatıdır və fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisini əhatə edir.

1.2. Fond qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alınan vaxtdan hüquqi şəxs statusu əldə edir. Fondun müstəqil balansı, banklarda hesabları, möhürü, ştampı, emblemi və sair rekvizitləri vardır.

1.3. Fondun hüquqi ünvanı: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6.

## 2. FONDUN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

2.1. Fondun əsas məqsədi elmi tədqiqatların aparılmasından, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların tətbiqindən, elm, təhsil, iqtisadiyyat və cəmiyyətin inkişafı istiqamətində mühüm sahələr üzrə yerli və beynəlxalq ekspert icmaları ilə iş birliyinin qurulmasından ibarətdir.

2.2. Fond göstərilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri həyata keçirir:

- iqtisadiyyat, idarəetmə və cəmiyyətin digər sahələrində elmi-tədqiqat işlərinin aparılmasına dəstək olur;
- elmi-praktiki məsələlərin həlli və innovasiyaların tətbiqi məqsədi ilə qrantların qazanılması istiqamətində fəaliyyət göstərir;
- yerli və beynəlxalq media qurumları ilə əməkdaşlıq edir;
- elm, təhsil, təcrübə, iqtisadiyyat və digər sahələrə aid konfransların, forumların keçirilməsində fəal iştirak edir;
- yerli və beynəlxalq ekspert icmaları ilə əməkdaşlıq edir;
- müxtəlif sahələri əhatə edən tədqiqatlar aparmaq üçün dövlət və özəl şifarişləri yerinə yetirir;
- öz əmlakını idarə edir və ona dair sərəncam verir;
- fəaliyyəti ilə bağlı digər funksiyaları həyata keçirir.

2.3. Məqsəd və vəzifələrinə uyğun olan və qanunvericilikdə qadağan olunmayan başqa fəaliyyət növlərini həyata keçirmək.

## 3. FONDUN HÜQUQLARI

3.1. Fond nizamnamə vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

- müqavilə və sazişlər bağlamaq;
- ölkə daxilində və onun hüdudlarından kənarda filial və nümayəndəliklər açmaq;
- müxtəlif təşkilatlara üzv olmaq, beynəlxalq təşkilatlarla əlaqələr saxlamaq;
- banklarda hesablar açmaq və hesablaşmalar aparmaq;
- elmi müzakirələr, simpoziumlar, seminarlar, konfranslar və digər tədbirlər keçirmək;
- qanunvericiliyə uyğun olaraq mətbu nəşrlər təsis etmək;
- elmi-kütləvi ədəbiyyat, toplular, kitablar nəşr etmək;
- mükafatlar təsis etmək;
- qanunvericiliklə qadağan edilməyən və onun nizamnamə məqsədlərinə uyğun olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

- Azərbaycan Respublikası qanunvericiliyində müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## 4. FONDUN ƏMLAKI VƏ TƏSƏRRÜFAT FƏALİYYƏTİ

4.1. Fondun mülkiyyətində Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan istənilən əmlak ola bilər.

4.2. Fondun əmlakı aşağıdakı mənbələrdən əmələ gəlir:

4.2.1. təsisçilərin qoyduqları vəsaitlərdən;

4.2.2. könüllü verilən vəsait və ianələrdən, nizamnamədə nəzərdə tutulan fəaliyyət nəticəsində əldə edilən mədaxil;

4.2.3. qrantlar;

4.2.4. qanunla qadağan olunmamış digər mədaxil.

4.3. Fondun təsisçilərinin və digər şəxslərin fonda verdikləri əmlak və əmlak üzərindəki hüquqlar (icarə, əvəzsiz istifadə və s.) fonda məxsusdur.

Fond öz əmlakından yalnız Himayəçilik Şurasının razılığı əsasında və Fondun nizamnaməsində göstərilən məqsədlər üçün istifadə edə bilər.

4.4. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc etməyə borcludur.

4.5. Fondun maliyyə vəsaitlərindən əməyin ödənilməsi, fəaliyyət predmetinə daxil olan işlərin görülməsi, habelə zəruri ehtiyacları üçün vəsait ayrılır.

4.6. Fondun birinci maliyyə ili dövlət qeydiyyatına alındığı tarixdən həmin ilin 31 dekabrınadək olan dövrü əhatə edir. Növbəti maliyyə illəri isə 1 yanvardan 31 dekabradək olan dövrü əhatə edir.

## 5. FONDUN NİZAMNAMƏ KAPİTALI

5.1. Fondun ilkin nizamnamə kapitalı 150 000 (yüz əlli min) manat təşkil edir və təsisçinin əmlakı hesabına formalaşır. Nizamnamə kapitalında təsisçinin əmlak payının miqdarı aşağıdakı kimidir:

"Azərbaycan Dövlət İqtisad Universiteti" məhdud məsuliyyətli cəmiyyəti -100%.

5.2. Nizamnamə kapitalı mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada dəyişdirilə bilər. Nizamnamə kapitalının dəyişməsi faktı Ədliyyə Nazirliyində qeydə alınmalıdır.

## 6. FONDUN RƏHBƏR ORQANLARI VƏ SƏLAHİYYƏTLƏRİ

6.1. Fondun nəzarət orqanı təsisçilər tərəfindən təşkil olunan Himayəçilik Şurasıdır. Himayəçilik Şurasının üzvləri Fondun təsisçiləri tərəfindən 3 (üç) il müddətinə seçilirlər.

Fondun Himayəçilik Şurasına yeni üzvlər yalnız şuranın bütün üzvlərinin razılığı ilə qəbul edilir.

**6.2. Himayəçilik Şurası:**

6.2.1. Fonda vəsaitlərin daxil olmasına nəzarət edir;

6.2.2. Fondun vəsaitlərinin xərclənməsinə nəzarət edir;

6.2.3. Fondun fəaliyyətinin ümumi istiqamətlərini müəyyən edir;

6.2.4. Fondun proqramlarını təsdiq edir və onların həyata keçirilməsinə nəzarət edir;

6.2.5. Fondun Prezidentini seçir və vəzifədən geri çağırır;

6.2.6. Fondun Prezidentinin hesabatlarını qəbul edir;

6.2.7. Fondun auditorunu müəyyən edir və onun hesabatlarını qəbul edir;

6.2.8. Fondun idarə aparatının xərc smetasını təsdiq edir;

6.2.9. Fondun əmlakından istifadə edilməsi barədə dərc edilməli olan illik hesabatları təsdiq edir;

6.2.10. Fondun Baş mühasibinin təyin olunmasına və işdən çıxarılmasına razılıq verir;

6.2.11. Fondun proqramlarının direktorlarının və əlaqələndiricilərinin təyin olunmasına razılıq verir;

6.2.12. Fondun yanında məsləhətçi-ekspert şuralarının yaradılması və üzvlərinin təyin olunması barədə qərar verir;

6.2.13. Fondun filiallarının və nümayəndəliklərinin açılması barədə qərar verir, onların əsasnamələrini təsdiq edir;

6.2.14. Fondun təsərrüfat cəmiyyətlərinin təsis olunması və ya Fondun hər hansı təsərrüfat cəmiyyətində iştirakı barədə qərar verir;

6.2.15. Fondun mənafeyi, onun nizamnamə məqsədləri tələb edən hallarda Nizamnaməyə dəyişiklik və əlavələr edir;

6.2.16. Fondun yenidən təşkili və ləğv olunması barədə qərar verir.

6.3. Nizamnamənin 6.2.15-ci və 6.2.16-cı bəndlərində göstərilən məsələlər Fondun Himayəçilik Şurasının üzvlərinin 3/4-dən çoxunun razılığı ilə qəbul edilir. Qalan məsələlər üzrə qərarlar Fondun Himayəçilik Şurasının üzvlərinin yarıdan çoxunun razılığı ilə qəbul edilir.

6.4. Fondun Himayəçilik Şurasının işi Fondun Prezidenti tərəfindən təşkil olunur. Fondun Himayəçilik Şurasının qərarları onun bütün üzvlərinə elan edilməlidir. Qərarlar Fondun Himayəçilik Şurasının sədri tərəfindən imzalanır.

6.5. Himayəçilik Şurasının iclasları ayda bir dəfədən az olmayaraq keçirilir.

6.6. Prezident Himayəçilik Şurası tərəfindən 3 (üç) il müddətinə vəzifəyə təyin edilir və vəzifədən azad edilir. Fondun Prezidenti təsisçi və ya digər üçüncü şəxs ola bilər.

6.7. Prezident Himayəçilik Şurasının iclaslararası dövründə, yaxud Şuranın müstəsna hallarda öz iclaslarını keçirməyə imkanları olmadıqda istənilən təcili tədbir görə bilər, lakin bu zaman Prezident Şuranın ilk iclaslarında bu tədbirlər barədə hesabat verməlidir.

**6.8. Fondun Prezidenti aşağıdakı səlahiyyətləri həyata keçirir:**

6.8.1. Fondun işlərinin idarə edilməsinə və Himayəçilik Şurasının qəbul etdiyi qərarların həyata keçirilməsinə ümumi rəhbərliyi təmin edir;

6.8.2. Himayəçilik Şurasının iclaslarını çağırmaq;

6.8.3. Fondun fəaliyyəti ilə bağlı Himayəçilik Şurasına hesabat vermək;

6.8.4. Fondun orqanlarının işini əlaqələndirmək;

6.8.5. Həm milli, həm də beynəlxalq səviyyədə Fondu təmsil etmək;

6.8.6. Himayəçilik Şurası tərəfindən həvalə edilmiş istənilən digər funksiyanı həyata keçirmək;

6.8.7. Müntəzəm olaraq İcraçı direktorun hesabatını dinləmək və bu barədə qərar qəbul etmək;

6.8.8. Himayəçilik Şurası ilə razılaşdırmaqla Fondun vəsaitləri üzərində sərəncam verir;

6.8.9. Fondun idarə aparatının işçilərini işə qəbul edir və işdən azad edir;

6.8.10. Fondun Baş mühasibi və Fondun proqramlarının direktorları və əlaqələndiriciləri vəzifəsinə namizədlər barədə Fondun Himayəçilik Şurasına təkliflər verir;

6.8.11. Fondun Himayəçilik Şurasının razılığını almaqla Fondun adından müqavilələr bağlayır;

6.8.12. Fondun proqramlarının, layihələrinin hazırlanmasını və ya hazırlanmış layihələrin ekspertizasını təşkil edir və hazır layihələri Fondun Himayəçilik Şurasının təsdiqinə verir;

6.8.13. Təsdiq olunmuş layihələrin həyata keçirilməsini təşkil edir;

6.8.14. Fondun vəsaitlərinin xərclənməsi barədə hesabatlar hazırlayır və Fondun Himayəçilik Şurasının təsdiqinə verir;

6.8.15. Fondun proqramlarının yerinə yetirilməsi vəziyyəti barədə Fondun Himayəçilik Şurasına onun müəyyən etdiyi qaydada və müddətlərdə vaxtaşırı hesabatlar verir;

6.8.16. Fondun İcraçı direktorunu təyin və azad edir.

6.9. Prezident müvəqqəti olmadığı hallarda onu əvəz edən şəxs Himayəçilik Şurasının qərarı ilə təyin olunur.

6.10. Fondun Prezidenti sənədlərin imzalanması ilə bağlı səlahiyyətlərini müvafiq əmr və etibarnamə əsasında İcraçı direktora həvalə edə bilər.

**6.11. İcraçı direktor aşağıdakı funksiyaları həyata keçirir:**

6.11.1. Himayəçilik Şurasının qərarlarını və Fondun Prezidenti tərəfindən ona verilmiş tapşırıqları yerinə yetirir;

6.11.2. Fondun aparatını idarə edir və aparata həvalə edilmiş işin yerinə yetirilməsinə məsuliyyət daşıyır;

6.11.3. Fondun büdcəsini və maliyyə hesabatların tərtib edir;

6.11.4. Fondun gördüyü işlər barədə rüblük hesabatları Prezidentə təqdim edir;

6.11.5. Nizamnamə çərçivəsində Prezident tərəfindən ona həvalə edilmiş istənilən digər funksiyanı həyata keçirir.

6.12. İcraçı direktor öz işi ilə bağlı mütəmadi olaraq Prezidenti dolğun məlumatlandırır.

## 7. FONDUN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV EDİLMƏSİ

7.1. Fond yalnız qanunda yol verilən hallarda və qaydada Fondun Himayəçilik Şurasının bütün üzvlərinin razılığı ilə yenidən təşkil (birləşmə, qoşulma, bölünmə və çevrilmə) oluna bilər.

7.2. Fond Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan hallarda məhkəmə tərəfindən ləğv edilir. Fondun ləğv edilməsi barədə Fondun özü tərəfindən məsələ qaldırmaq Fondun Himayəçilik Şurasına məxsusdur.

7.3. Fondun ləğv edilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən həyata keçirilir.

7.4. Fond ləğv edildikdə onun borclarının ödənilməsindən sonar qalan əmlakı Fondun nizamnaməsində göstərilən məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

7.5. Bu Nizamnamə ilə müəyyən edilməmiş digər məsələlər qanunvericilikdə müəyyən edilmiş qaydada həll edilir.

7.6. Gələcəkdə bu Nizamnamənin hər hansı müddəası qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin tələbləri əsas götürülür.